# *Misirli ifaçı:* "Şuşada keçirilən bu möhtəşəm festivalda çıxış etmək mənim üçün böyük şərəfdir"

"İlk dəfədir Azərbaycana səfər edirəm. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən bu möhtəşəm festivalda çıxış etmək mənim üçün böyük şərəfdir".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının iştirakçısı misirli ifaçı Hamza Namira deyib.

"Festival zamanı xüsusilə Şuşanın gözəlliyinə və burada səslənən Azərbaycan musiqisinə heyran oldum. Ölkənizin mədəniyyəti və musiqisi barədə daha çox məlumat almaq istəyirəm. Mənim festivaldakı ifam dünyanın müxtəlif ölkələri arasında sülhün, sabitliyin, qarşılıqlı anlaşmanın təmin olunmasına bir mesaj idi. Musiqinin ərəb dilində olmasına baxmayaraq, inanıram ki, festival iştirakçıları bu musiqinin ötürdüyü hissi və mesajı başa düşdülər", - deyə ifaçı bildirib.

Azərbaycan.- 2022.- 15 may.- S.5.